# Aydın Həsənov (qısa tərcümeyi-hal)



Cənab Aydın Həsənovun 25 ildən çox biznes və məsləhətçi təcrübəsi var. 1992-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Şərqşünaslıq fakültəsini bitirmişdir. Karyerasına ticarət sektorunda 1992-ci ildə başlamışdır. 1996-cı ildə Yanacaqdoldurma stansiyasının meneceri vəzifəsində çalışmışdır. 1996-1998-ci illərdə Azərbaycan Silahlı Qüvvələri sırasında zabit olaraq xidmət etmişdir.

1998-ci ildən cənab Aydın Həsənov, fərdi olaraq xüsusi sifarişli tədqiqat layihələrində ixtisaslaşmış Azərbaycanın aparıcı biznes məsləhət şirkətlərindən biri olan AzEkoKonsaltinq şirkətində layihələrin idarə olunması üzrə menecer vəzifəsində çalışmışdır. 2002-ci ildən etibarən o, AzEkokonsaltinq şirkətinin direktoru vəzifəsində işləyir, prezidenti və qurucusudur.

2004-2006-cı illərdə ABTM-də Dünya Bankının strukturu olan Beynəlxalq Maliyyə Korporasiyasının və BP Şirkətinin sponsorluğu ilə "KOBİ-lər üçün biznes xidmətlərinin inkişafı" layihəsinin Biznes-plan üzrə ekspert vəzifəsində çalışıb. Fəaliyyəti dövründə Aydın Həsənov bir çox idarəetmə, marketinq və bazar araşdırması layihələrinə rəhbərlik və ya iştirak etmişdir.